# Qloballaşma və elm: istinad indeksinin vacibliyi

Müəllif **Hümeyir Əhmədov**
Pedaqogika üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikası Təhsil İnstitutunun şöbə müdiri. E-mail: humeyir@gmail.com
https://orcid.org/0000-0001-8659-9488

Annotasiya XXI əsrin fenomeni kimi, qloballaşma inkişaf, yeniliklər texnoloji proseslərin optimallaşdırılmasına gətirib çıxarır və bəşər elmini yeni səviyyələrə qaldırır. Ən müasir elmi-texnoloji və innovativ bazası ilə birgə beynəlxalq tədqiqat strategiyaları elm sahəsində vahid və unikal bir model yaradır, dövlətlərin milli suverenliyini müəyyən edən, geofiziki sərhədləri aşan, bəşəri informasiya və müasir düşüncə tərzini sürətlə inkişaf etdirir. Bu isə tədqiqatçılar üçün qlobal bir texnoloji şəbəkə yaradaraq onlara geniş imkanlar açır. Elmi nəşrlərdə vahid rəqəmsal istinad indeksin inkişafı və onun daim optimallaşdırılması tədqiqat üçün sürətli və etibarlı mənbələr yaradır. Təklif olunan hipotezlər onların elmi dəyərinin həm nəzəri, həm də praktiki cəhətdən düzgünlüyünü, əhəmiyyətini qiymətləndirməyə geniş imkanlar açır və alimlər arasında elmi forumlara səbəb olurlar. İstinad müəyyən bir tədqiqatın inkişafını izləmək, onun güclü və zəif tərəflərini müəyyən etmək və təkmilləşdirib real təcrübədə istifadə etmək imkanını yaradır. Tədqiqat prosesində düzgün və dəqiq istinad edilməsi üçün müəllif müxtəlif yanaşmaları tapmalıdır. Bu elmi fikirləri müqayisə edərək, onları təhlil etməli və bunun əsasında öz mövqeyini elmi cəhətdən əsaslandıraraq, həmin brendin bir tərkib hissəsi olmaq imkanını əldə etməlidir. Belə alimin istinad indeksinin reytinqi güclənir və başqa tədqiqatçılar onun elmi fikirlərini rəhbər tutub onun əsərlərinə təhlili yanaşıb istinad edirlər. Elmi araşdırmalarda və tədqiqatlarda tez-tez edilən istinad yalnız bir alimin karyerasını dəstəkləmir. O həm də müxtəlif dövlətlər və bölgələr səviyyəsində tədqiqat brendinin yaradılması üçün güclü zəmin yaradır. Bu isə elmin, yəni bütövlükdə cəmiyyətin qloballaşmasını sürətləndirməkdə mühüm rol oynayır. Bu baxımdan milli elmi istinad indeksinin yaradılması və onun dövlət üçün vacibliyi danılmaz olur.

Açar sözlər Brend, hipotez, indeks, istinad, qloballaşma, marketinq, motivasiya, ölçü, optimallaşdırma, yenilik.

http://dx.doi.org/10.29228/edu.16

Məqaləyə istinad: Əhmədov H. (2019) *Qloballaşma və elm: istinad indeksinin vacibliyi.* «Azərbaycan məktəbi». № 2 (687), səh. 153–164.

Məqalə tarixçəsi: Göndərilib — 16.02.2019; Qəbul edilib — 14.04.2019

# Globalization and science: The importance of citation index

Author **Humeyir Ahmadov**
Professor, Dr. Head of Department, The Institute of Education of the Republic of Azerbaijan. E-mail: humeyir@gmail.com
https://orcid.org/0000-0001-8659-9488

Abstract Globalization as a phenomenon of the 21st century leads to development, innovations and optimization of technological processes and raises the human science to new levels. The International research strategies together with the most up-to-date science-technology and innovation base create a unique model in the field of science, speeding up the development of information technologies and modern way of thinking, defining national sovereignty, exceeding geophysical boundaries. This creates a global technological network for researchers and opens up opportunities for them. The development and further optimization of a citation index in scientific publications creates fast and reliable sources for research. The proposed hypothesis opens wide opportunities for evaluating both theoretical and practical significance of their scientific value, and leads to scientific forums among scientists. The citation creates the opportunity to follow the development of a particular research, identify its strengths and weaknesses, and apply them in practice. For right and most exact citing in the course of the research the author uses various approaches: comparing scientific views, analysing them and, having scientifically proved the position, has an opportunity to become an integral part of this brand. The rating of this scientist's citation index is increasing, and other researchers cite his scientific views and analysis his works. Frequent citing is important not only for career development of one scientist. It also creates a strong foundation for the creation of a research brand at the level of different countries and regions. It plays an important role in speeding up the globalization of science and the whole society. In this regard, the creation of a national science citation index and its importance to the state are undeniable.

Keywords Brand, citation, globalization, hypothesis, index, innovation, marketing, measurement, motivation, optimization.

http://dx.doi.org/10.29228/edu.16

To cite this article: Ahmadov H. (2019) *Globalization and science: The importance of citation index.* Azerbaijan Journal of Educational Studies. Vol. 687, Issue II, pp. 153–164.

Article history: Received — 16.02.2019; Accepted — 14.04.2019

## Giriş

İstinad müxtəlif mədəniyyət mənbələrinin sintezi olan elmi təfsir kimi qəbul edilir. Elmi metodologiya və sosiologiya ilə uyğun olan bu mövqe, istinadın nəzəri və praktiki əhəmiyyəti arasında təklif olunan fərziyyənin faktiki mənbəyini, məntiqi və obyektiv əlaqəni müəyyənləşdirir. Araşdırmada istinad elmdə həmişə mühüm rol oynamışdır. Tədqiqatçının yeni yanaşmasını dərk etmək və qiymətləndirmək, elmdə yeni ideyaların yaranması üçün vacib olan ilkin məlumatları əldə etmək çox vacibdir. Bu sahədəki əvvəlki tədqiqatların dəyərləndirilməsi, qiymətləndirilməsi və qəbul edilməsi bizə yeni fikir və yanaşmalar əldə etmək imkanı verir. Tez-tez mənbələrin müəyyənləşdirilməsinə töhfə verən tədqiqatın reallığını və praktiki əhəmiyyətini təsdiq edir. Bir qayda olaraq, bu cür istinad müxtəlif təsirlərin ümumi strukturunu müəyyənləşdirir, tədqiqatın əsasını elmi bir yanaşma kimi müəyyən etməyə imkan verir. Dünya tərəfindən tanınmış müəlliflərə istinad həmişə mövcud idi. Avropa Renesansı və elmi tədqiqat üsullarının ortaya çıxmasından çox-çox əvvəl elm hər zaman özünü zənginləşdirmişdir. Evklid öz dövründən əvvəlki tədqiqatlara istinad etmiş və həndəsi simvollardan geniş istifadə edərək elmin bütün sahələrində yeni bir mərhələyə qədəm qoymuşdur [Staugaitis L. 2019]. İlk minilliyin sonunda, İslam alimləri «Quran-i Kərim»də olan hədislərdə Məhəmməd peyğəmbərin ifadələrinin dəqiqliyini qorumaq üçün öz istinadlarını inkişaf etdirmişdilər. Erkən müsəlman fəlsəfəsinin Asharite («Ashʿarite») məktəbi onu qanun (fiqh) ilə genişləndirdi, Mutazilite («Muʿtazila») məktəbi ənənəvi üsullardan istifadə etdi və onları elmdə də tətbiq etdi [Bickett B. 2019].

Biz elmi və texniki informasiyanın qloballaşma dövründə yaşayırıq, bu da bir çox elmi həqiqəti əhatə edən geniş məlumat bazasında toplanmışdır. Texnologiyanın sürətli inkişafına, tətbiqi elmlərdə biliklərimizin təkmilləşdirilməsinə və bu bacarığı gündəlik həyatda tətbiq etmək qabiliyyətinə nail oluruq. Akademik Arif Mehdiyev Səlahəddin Xəlilovun «Elmşünaslığa giriş» adlı əsərinə rəyində yazır ki, Azərbaycan elmin inkişafına görə islam dünyasında öncül mövqelərdən birini tutsa da, onun inkişaf qanunauyğunluqları, sosial funksiyaları, daha optimal təşkilatlanması haqqında tədqiqat işləri çox azdır [Xəlilov S. 2010]. Sovet dövründə respublikamızın kifayət qədər formalaşmış elmi təşkilati strukturları olmuşdur və onların əksəriyyəti indi də davam etməkdədir. Bununla belə, elmi tədqiqat işlərinin daha səmərəli olması, ölkəmizin real ehtiyaclarına uyğunlaşdırılması və onların optimal dəyərləndirilməsi üçün elmin özünün elmi əsaslarla öyrənilməsi və bu məqsədlə ilkin sosioloji tədqiqatlar aparılması ən aktual vəzifələrdən biri kimi qalmaqdadır [Mehdiyev A. 2011, s. 222].

XIX əsrin sonundan etibarən informasiya və kommunikasiya texnologiyalarının inkişafı sahəsidə bilik mənbələri əhali üçün açıq və əlçatan olub. Tədqiqatçılar başqa elmi araşdırmalara istinad edib, onları dərindən öyrənib və təklif etdikləri hipotezlərin aktuallığını sübuta yetiriblər. Onlar elmi yeniliklərin tanınması üçün patent əldə edə bilib istinad üçün güclü zəmin yaradıblar.

Science Citation İndex – SCİ («Elmdə istinad etmək göstəricisi») 1963-cü ildən ABŞ-da (Filadelfiya şəhəri, Pensilvaniya ştatı) Elmi İnformasiya İnstitutunda (İnstitute for Scientific İnformation – İSİ) işlənmişdir. Onun yaradıcısı və həyata keçirilməsinin baş ideya rəhbəri Y.Qarfild (Eugene Garfield) eyni zamanda, İSİ – nin prezidenti olmuşdur. Sovet İttifaqında bu sistem digər adlarla məşhur idi: «Qarfild indeksi», «İstinad edilmiş ədəbiyyatın göstəricisi», «Elmi istinad indeksi». SCİ-nin prototipi hələ 1873-cü ildə amerikalı nəşriyyatçı F.Şepard «Medisinal İndeks Medikus» jurnalında bir sıra hüquqi sənədlər üçün qeydiyyat indeksini təqdim etmişdir [Рыкова И.Н. 2013]. 1873-cü ildən ABŞ-da mütəmadi olaraq «Şepardın federal qanunvericiliyinin istinadlar göstəricisi («Shepard's İndex») çap olundu [Мотрошилова Н.В. 2013, s.8]. Elmdə ilk istinad etmək göstəricisi 1961-ci ildə nəşr olunur. Bura 1959-1960-cı illərdə çap olunmuş işlər haqqında məlumatlar daxil idi. 1963-cü ildən bu göstərici mütəmadi olaraq çap olunur. 1964-cü ildən SSRİ-də SSRİ Elmlər Akademiyası Ümumittifaq Elmi və Texniki İnformasiya İnstitutunda (ВИНИТИ) meydana gəlir. Hazırda SCİ sistemi dünyada çox məşhurdur [Мотрошилова Н.В. 2013, s.9]. SCİ sistemi 3 məlumat bazasının məcmusunu təqdim edir: 1. Təbii və texniki elmlərin məlumatlar bazası (1963-cü il). 2. Sosial elmlərin məlumatlar bazası (1973-cü il). 3. İncəsənət və humanitar elmlərə dair nəşrlər daxil edilmiş məlumatlar bazası (1978) [Мотрошилова Н.В. 2013, s.16].

Bundan sonra, alimin tədqiqat fəaliyyətinin qiymətləndirilməsi üçün istinad indeksi 1972-ci ildə Amerikada nəşr olunmuşdur. Çində 1987-ci ildə «Çin elmi istinad indeksi» (China Citation Database) adlı bir layihə hazırlanmışdır. Yaponiyada 1995-ci ildə «Yapon sənədləri üçün İstinad Bazası» («Citation Database for Japanese Papers») yaradılmışdır [Ардашкин И.Б., Сидоренко Т.В. 2016].

### Elmi istinad bazası nədir?

Elmi istinad yeni fikirlər və yanaşmalara səbəb olur, vahid və zəruri bir yanaşma formalaşdırmaq üçün yeni bir mövqe yaratmaqla birbaşa əlaqələndirilir. Buna görə mövcud elmi mətnlərə istinad birbaşa elmin qloballaşmasına gətirib çıxarır. Tədqiqatçılar yalnız öz tədqiqatlarını dərc edərək, elm sahəsinə öz töhfələrini verə bilərlər. Bu yanaşma elmi qloballaşmanın intellektual mülkiyyəti kimi qəbul edilən qarşılıqlı mənəvi və elmi tələbləri əlaqələndirir. İstinadlar ümumi bilik və mənəvi dəyərlərdir. Bu baxımdan, dünya ictimaiyyətinin harmonik ünsiyyəti üçün istinadlar vacib olan universal fəaliyyət növüdür.

Elmi məqalədə əvvəllər nəşr olunan hipotezlərə və ya yeni nəşrə aid ifadələrə ətraflı istinad oluna bilər. Əvvəlki tədqiqatlara istinad edərkən, əsas məqsəd oxucuya təqdim olunan elmi əsərə aid olan tam məlumat vermək, elmin gələcək inkişafı üçün əhəmiyyətli olan mənbələr və yeni yanaşma üçün zəmin yaratmaqdır. Belə məqalələrdə, adətən, bir çox mənbələr bir-biri ilə uzlaşır. Mövcud elmi əsərə istinad, onun təhlili zamanı yeni bir elmi yanaşma və ya fərziyyə irəli sürülə bilər. Bu təcrübənin əsas məqsədi irəli sürülən hipotezin unikallığını və yeniliyini

əsaslandırmaqdır. Müasir elmdə hər hansı bir araşdırmanın dəyəri və əhəmiyyəti onun istinad indeksinin səviyyəsi əsasında yaradılır [Mərdanov M., Həsənova A. 2018, s.95-105]. Beləliklə, elmi məqalə biblioqrafik mənbələrdən olan digər tədqiqat əsərlərinin bir qismini özündə əks etdirir. Düzgün istinad etmək – əvvəlki əsərlərin və ideyaların toplanması, oxucuya təklif olunan elmi fikirlərin dəyərini, yeniliyini və etibarlılığını müstəqil şəkildə müəyyən etməkdir. Bu, tədqiqatın bəşəri elm üçün dəyərini bildirir və onun bu xəzinəyə daxil edilməsinə imkan yaradır. Beləliklə, tədqiqat və məqalələr müəllifin yaradıcılıq məharətini əks etdirir, onun akademik sistemdə yerini müəyyənləşdirir və bu keyfiyyət onun elmi istinad indeksində öz əksini tapır. Bəzi müəlliflər riyazi təfəkkürə malik olmadığından tədqiq etdikləri məsələni düzgün qoya bilmir. Dünya şöhrətli görkəmli alim, akademik Azad Mirzəcanzadə «İxtisasa giriş» adlı dərsliyində bu barədə belə yazır: «Riyazi ifadə fikrin ən qısa və dəqiq ifadəsidir. Bu təkcə həcmdə məhdud olan jurnal məqalələrinə aid deyildir. Məsələn, Nyutonun kəşf etdiyi dinamikanın əsas qanununu götürək, cəmisi üç hərfdən ibarət olmasına baxmayaraq nə qədər mənalıdır. Bütün elektrodinamikanın izahı üçün Maksvellin dörd tənliyi kifayət edir. Fikrin riyazi ifadəsinin sadəliyi, münasibətliyi və gözəlliyi də bundadır. Bu tərzdə verilən ifadə ümumi nəticə çıxarmağa imkan verir» [Mirzəcanzadə A.X., Şıxəliyev F.Ə. 1985, s.14].

Elmi əsərdə istifadə olunan mənbələrin siyahısı böyük əhəmiyyətə malikdir, buna görə də istinadlar etibarlı və düzgün olmalıdırlar. İstinad, hər hansı bir mənbənin, tədqiqatın və ya elmi yanaşmadan alınmış fikrin nəticəsinin faktiki hissəsini nəzərdə tutur. Elmi istinad etmək, orijinal mənbədən yoxlanıla biləcək digər tədqiqatçılar tərəfindən yazılmış bir fərziyyənin təfsiridir. Hər yeni elmi məqalənin müəllifi müəyyən bir hipotezə necə gəldiyini təsvir etməlidir. O öz tədqiqatının bu və ya digər bir sahədə əvvəlki elmi işlərə necə istinad etdiyini əsaslandırmalıdır.

Müəllifin yazdığı elmi mövzudan asılı olaraq, həmçinin təşkilatın, jurnalın və ya nəşriyyatın təyin etdiyi qaynaqlara istinad etmək üçün əvvəlcədən müəyyən edilmiş tələblərə riayət etmək çox zəruridir. Bu baxımdan, bir neçə elmi istinad sistemləri mövcuddur: «Web of Science» Bilgi Portalı, Medline, Scopus və s. Məsələn, doktorluq dissertasiyasında istinadlardan istifadə edərkən tələblər kimi qəbul olunmuş qaydalara riayət edilməlidir. Məqsəd, mətndə istifadə edilmiş istinadları və digər mənbələrdən götürülmüş fikirləri tam və düzgün əhatə etməkdir. İstinad tələblərini qəbul etdikdən sonra eyni üsul mətn boyunca ardıcıl tətbiq olunmalıdır. Oksford İstinad («Oxford Citation»), Harvard İstinad Sistemi («Harvard Citation System»), Amerikanın Sosioloji Birliyi («American Sosiology Assosiation»), Amerikanın Psixoloji Birliyi («American Psychology Assosiation») və s. Bu kimi sistemlərin hər birinin öz üstünlükləri və mənfi cəhətləri vardır.

Harvard İstinad Sistemi («Harvard Citaion System») təbiət və ictimai elmlərdə ən ümumi istinad üsullarından biridir. Həmin sistem tez-tez «müəllif-tarix» sistemi adlanır. Bu kateqoriya, həmçinin punktuasiya nişanları və birləşmələrindən necə istifadə etməklə Harvard sistemindən bir qədər seçilən Amerikan Psixoloji Birliyi («American Psychology Assosiation») istinad sistemini də əhatə edir. Harvard sis-

teminin xüsusiyyətləri mətndə yalnız əsas informasiyanın (müəllifin adı, yayım ili və s.) siyahısı və iş haqqında tam məlumat, istifadə edilmiş ədəbiyyatın siyahısının tədqiqatın sonunda verilməsindən ibarətdir. Müəllif müəyyən bir yazı hazırlayarkən müxtəlif növ məlumatlarla qarşılaşır. Məsələn, bir nəşr, bir neçə müəllif tərəfindən yazıla bilər, bəzən isə müəlliflər yerinə, yalnız bu əsəri nəşr edən təşkilat qeyd olunur. Belə mənbələrə istinad edərkən, onları fərqli üsulla qeyd edirlər. Müəlliflər qrupu, jurnalın adı, istifadə edilmiş ədəbiyyat, şəhər və nəşr ili ilə əlaqədar məlumatlar və s. əsas biblioqrafik elementlər sayıla bilər. İstifadə edilmiş ədəbiyyat siyahısı mətndə bir dəfə verilə və ya məqalənin sonunda istinadlar siyahısı kimi qeyd oluna bilər. Mətndə istinadlar 1-dən başlayaraq ərəb rəqəmləri ilə verilməklə bərabər, mətnin özündə də qeyd oluna bilər. Bəzi məlumat növləri standart olan nöqtə ilə ayrılır.

Akademik prosesdə mövcud olan ən böyük problem plagiatdır. Bu, müəllifin akademik bütövlüyünü və maraq dairəsinin tədqiqat sahəsindəki daimi münaqişənin səbəbini ən çox pozan məqamlardan biridir. Digər şəxslərin fikirlərini, sözlərini və ya işlərini müvafiq forma ilə istinad etmədən qeyd etmək, istifadə etmək və ya başqa şəkildə vermək qadağandır. Bir cümlədə bir neçə sözü dəyişdirmək və ya başqa bir fikri öz sözlərinizlə şərh etmək, sözün sinonimlərindən istifadə etmək tövsiyə olunmur. Eyni zamanda, məqalə yazarkən digər alimlərin sözlərini və ideyalarını istifadə etmək mümkündür, lakin bu söz və fikirlərin götürüldüyü mənbəyə istinad etmək zəruridir. İstinad hər hansı bir tədqiqatın bir tərkib hissəsi və aparıcı qüvvəsidir. Belə ki, istinad hipotizanın və elmi yanaşmanın qiymətləndirilməsi üçün çox vacib bir meyardır. Məlumdur ki, məhz inkişafın lap ilkin mərhələsində, səlis istinad etmək bacarığı danılmazdır. Bu istinadın nəticəsində tədqiqatçı şəxsi təcrübəsini əldə edir və elmdə öz yerini tapır. Elmdə istinad etmə bacarığı mənbələrin öyrənilməsi, məsləhətləşmə və müzakirələr nəticəsində əldə olunur. Hazırda tədqiqatçının, elmi qurumların, hətta bütün ölkələrin elm və tədqiqat üzrə fəaliyyətlərinin qiymətləndirilməsi məhz onların istinad indekslərinin reytinqini müəyyən edir. Bu isə onların əsas elmi nəticələrini açıq nümayiş etdirir.

## Milli istinad indeksinin vacibliyi

Müxtəlif dövrlərdə milli istinad indeksinin yaradılması və alimlərin tədqiqat fəaliyyətlərinin bu cür qiymətləndirilməsi bəzi anlaşılmazlıqlara səbəb olub. Belə ki, elmi istinad indeksləri ilə uzun müddət işləyən və bu cəhətdən istinad indeksi sahəsində daha böyük nailiyyətlər əldə edən ölkələr mövcuddur. Bu təcrübəyə malik olan ölkələrlə milli indeksləri son zamanlarda yaranmağa başlayan ölkələr arasında ziddiyyətlər mövcuddur. Müqayisə zamanı təsdiq olunur ki, istinad sahəsində təcrübəyə malik olan ölkələr daha üstün istinad indeksinin reytinqinə nail olurlar. Bunun əsasında sözügedən «təcrübəli ölkələr» qlobal elmin zirvəsinə nail olmuş sayılırlar. Belə yanaşma dünya elmində qeyri-bərabərlik və qeyri-sağlam rəqabət yaradır. Bu vəziyyətdən çıxmaq, beynəlxalq aləmdə qəbul edilmiş istinad

indekslərinin əsas elementlərindən istifadə edərək milli elmi istinad indeksini yaratmaq lazımdır. Belə milli istinad indeksi mütləq digər istinad indeksləri ilə uzlaşdırılmalıdır.

İstinad etmənin əsas məqsədi: a) nümunə çəkdiyiniz fikrə diqqət çəkirsiz və ya təsdiq etdiyiniz fikri sübut edirsiniz; b) yazılı işə nümunə kimi istinad edirsiniz və ya təsdiq etdiyiniz fikri sübut edirsiniz; c) kimi isə rəsmi olaraq mühakimə etmək; ç) hesabat və ya digər sənəddə kimi isə cəsarətli və ya digər xüsusi əhəmiyyətli hərəkətin icrasına görə rəsmi olaraq xatırlamaq [Бредихин С.В., Кузнецов А.Ю., Щербакова Н.Г. 2013, s.11]. Elmi əsərlərdə, xüsusilə monoqrafik kitablarda faktlara istinad və ya sitat gətirmələr çox yer alır. Təhlillər göstərir ki, çox zaman fakt və sitat əsassız yerə sayca çoxaldılır, yəni heç də onların hamısı müəllif fikrini sübut etmək funksiyası daşımır. Rast gəlinən bir çox hallarda isə istinad edilən mənbədən gətirilən nümunələri tapmaq mümkün olmur. Bunun qarşısını almaq üçün istinadlar seçmə üsulu ilə yoxlanılmalı, şübhə doğuran sitatlar əsli ilə tutuşdurulmalıdır [Abramo G., D'Angelo C. 2011, s.319]. Elmi istinad indeksinin yüksək göstəricisi təkcə bir alimin əldə etdiyi nailiyyətlər ilə tamamlanmır. O həm də müxtəlif dövlətlər və bölgələr səviyyəsində elmi tədqiqat brendlərinin yaradılmasının əsas mənbəyidir. Qloballaşmanın sürətlənməsi prosesində elmi istinad indeksinin mövcudluğu mühüm rol oynayır. İstinad indeksinin yaradılması hər hansı bir tədqiqatın və müəyyən bir elmi araşdırmanın inkişafını izləmək imkanını yaradır. Bu sahədə əldə edilmiş nəticələrin şahidi olmaq və tədqiqatın daha güclü və zəif tərəflərini tutmaq mümkün olur. Bu isə yenilikləri real təcrübədə istifadə etmək və elm sahəsində öz tədqiqat brendini yaratmaq üçün güclü zəmin yaradır [Парамонов С. 2014, s.67].

Tədqiqat prosesində düzgün istinad etmək və müxtəlif yanaşmaları tapmaq tədqiqatçının məharətini təsdiq edir. Elmi yanaşmaları müqayisə və təhlil etmək, öyrənmək, istinad müəllifinin mövqeyini açıqlamaq aparılan tədqiqat üçün çox vacibdir. Başqa alimin axtarışlarını elmi cəhətdən əsaslandırmaq müəllifə həmin brendin bir hissəsi olmaq üçün dəstək olur. Bunun nəticəsində tədqiqatçının istinad indeksinin reytinqi güclənir və ona bir alim kimi tez-tez istinad edirlər. Mövcud bir brendin tərkib hissəsi olmaq və ya öz brendini yaratmaq üçün müəyyən texniki bilik, praktiki bacarıq əldə etmək tələb olunur. Bu məsələdə tədqiqatın keyfiyyəti və davamlı məntiqi vacib rol oynayır. Bu baxımdan giriş, məqsəd, metodlar və metodologiya, nəticələr və elmi yenilik, tədqiqatın praktiki əhəmiyyətini əsaslandırmaq bacarığı tələb olunur. Açar sözlərin düzgün seçilməsi və istinad olunan ədəbiyyatın nəzərdən keçirilməsinin təşkili də nəzərdə tutulur. Bununla yanaşı, seçilmiş tədqiqat metodları, əldə edilmiş nəticələri əsaslandırmaq, təqdim olunmuş sualları müzakirə etmək və yekunlaşdırmaq tələb olunur. Mənbələri qeyd etmək və müəllifin öz əvvəlki tədqiqatlarına istinad etməsi, onun elmdə axtarışlar aparmaq məharətini və dəyərini sübut edir.

Elmi İstinad İndeksi («Scientific Citation Index») 1900-cü ildə Eugene Garfield tərəfindən yaradılmış və ilk dəfə Elmi İnformasiya İnstitutunda tətbiq olunmuşdur. Lakin bu sistem rəsmi olaraq 1964-cü ildən istifadə edilməyə başlanmış və

Genişlənmiş Elmi İstinad İndeksi («Science Citation Index Expanded») ilə əvəz edilmişdir. 2000-ci ildən etibarən Kanada və Honq Konqa məxsus olan analitik şirkət «Clarivate Analytiks» tərəfindən dəstəklənən «Web of Science» Elm Portalı adlı elektron bazası bütün elmi məqalə indekslərinin əsas elmi məlumat bazası kimi fəaliyyətə başlamış və bu günədək onun fəaliyyəti davam etməkdədir. Daha məşhur istinad edilən məlumat bazaları: 1.Scopus – intizamlı referativ baza (tammətnli deyil). Bu, dünyada hər gün yeniləşən ən böyük referativ məlumatlar bazasıdır. 2.Web of Science (Thomson Reuters) – elmi jurnallardan alınmış bütün məqalələrin biblioqrafik təsvirlərini saxlayır və əsasən aparıcı beynəlxalq və milli jurnallardakı elmin fundamental bölmələri üzrə nəşrləri əks etdirir. Elmi istinad edilmə Web of Science-in məlumatlar bazası hər həftə yenilənir və 3 əsas məlumatlar bazasından ibarətdir: – Science Citation İndex Expanded: təbii elmlər üzrə baza; – Social Sciences Citation İndex: sosial elmlər üzrə baza; – Arts and Humanities Citation İndex: incəsənət və humanitar elmlər üzrə baza. 3.Science Citation İndex Compact Disc Edition (SCİ) – «Elmi istinadların göstəricisi» «Thomson» şirkətinə daxil olan Elmi İnformasiya İnstitutu (Filadelfiya, ABŞ) tərəfindən buraxılır. Bu məlumatlar bazasının unikallığı elmin ayrı-ayrı sahələri arasında sədd qoymamağında və mövcud qaydaları qoruyub saxlamağındadır.

Əsl bilgi qaynağı olaraq «Web of Science» elm portalında 300-ə yaxın tədqiqat sahəsi, eləcə də minlərlə elmi jurnallar, araşdırmalar, hesabatlar, konfranslar və başqa elmi sənədlər təqdim olunub. Toplanan məlumatlar bu kimi elmi istinad indeksləri ilə təqdim olunub: «Social Sciences Citation Index» (Sosial Elmlər üzrə İstinad İndeksi), «Arts and Humanities Citation Index» (İncəsənət və Humanitar İstinad İndeksi) əvvəlcə Elmi İnformasiya İnstitutu tərəfindən hazırlanmış, 2008-ci ildən «Thomson Reuters» mətbuat agentliyi tərəfindən dəstəklənərək 2016-cı ildən etibarən bu elmi istinad bazası bütövlükdə «Clarivate Analytiks» tərəfindən alınmışdır, Konfrans Prosedurları İstinad İndeksi («Conference Proceedings Citation Index – Science») – Elm, Kitab İstinad İndeksi («Book Citation Index»), Bilik Portalı («Web of Knowledge»), Dervent İnnovasiya İndeksi («Derwent Innovation Index»), Bioloji Xülasələr («Biological Abstracts»), BIOSIS İstinad İndeksi («BIOSIS Citation Index»), BIOSIS İlkin baxışlar («BIOSIS Previews»), CABI: CAB Referatlar və Qlobal Sağlamlıq («CABI: CAB Abstracts and Global Health»), Çin İstinad Məlumat Bazası («China Citation Database»), İstinad İndeksinin Məlumatları («Data Citation Index»), FSTA – qida üzrə elmi resurs, İnspek («Inspec»), Koreya Jurnal Məlumat Bazası (KCI), Rusiyanın elektron kitabxanası (MEDLINE; «e-Library.ru») bir neçə istinad indeks portallarını təqdim edir və Rusiya Elmi İstinad İndeksi («Российский Индекс Научного Цитирования») bunların arasında mühüm rol oynayır, SciELO İstinad İndeksi («SciELO Citation Index»), Zooloji qeydlər, bunlarla yanaşı Skopus («Scopus») istinad bazası olaraq, Hollandiyanın ən böyük elmi məlumat və analitik nəşriyyat şirkəti olan «Elsevier» tərəfindən 2004-cü ildən etibarən dəstəklənir. «Scopus» elmi jurnallarda dərc olunan məqalələrin istinad ideksini təmin edir. Elsevier mətbuat şirkəti olaraq, öz portalında təqdim etdiyi ölkələrin elmi nüfuzunu və onların istinad

indeksinin reytinqini müəyyən edir, SOBİAD Türkiyənin milli elmi istinad indeks-elektron bazasıdır. O, 1300-ə yaxın elmi jurnalı təqdim edir. 2008-ci ildə Bakıda İslam Konfransı zamanı təsdiq edilmiş İslam Dünyası İstinad Bazası (Islamic World Science Citation Database) İranın Elm, Tədqiqat və Texnologiya Nazirliyi tərəfindən təyin olunan istinad indeksidir ki, Scopus, Elsevier ilə əməkdaşlıq edir. Hazırda dünyanın 6 güclü korporasiyası elmi istinad indekslərini öz elektron portallarında dəstəkləyir: Amerikanın Milli Tibb Kitabxanası (ABŞ) 1879-cu ildən; CAB Direct (İngiltərə) 1973-cü ildən; «e-Library.ru» (Rusiya) 1989-cu ildən; «Clarivate Analytiks» (Kanada və Honq Konq) 2000-ci ildən; «Elsevier» (Hollandiya) 2004-cü ildən etibarən; «National Research Foundation Korean» 2014-cü ildən.

«Web of Science» elm portalında sorğunun dəqiq verilməsi axtarışı tezləşdirir. Bu elektron baza yüksək keyfiyyətli elmi araşdırmalar üçün möhkəm zəmin yaradır, mövcud tendensiyaları müəyyənləşdirir və tədqiqatın unikallığını təmin edir. Elmi nailiyyətləri üzə çıxarmaq və onları başqaları üçün əlçatan etmək vacibdir. Bu baxımdan, ənənəvi olaraq, elmdə bu kimi əsas metodlar istifadə olunur: elmi jurnallarda məqalələrin dərc olunması və konfransda səslənən çıxışlar. Bu səpkidə, «Web of Science» elm portalı alimlərin tədqiqatlarını araşdırır və konfranslar üçün jurnallar müəyyən edir. Elmi jurnallara və konfranslara təqdim edilən məqalələr tədqiqatçının imicini formalaşdırır. Beynəlxalq tədqiqatçılar öz elmi əsərlərini İnternet səhifələrində və «Web of Science» elm portalında yerləşdirməklə qlobal şəbəkəyə qoşulurlar. Tədqiqatçılar elm sahəsində öz brendlərini yaradır və onların elmi istinad indekslərinin reytinqi durmadan artır. İstinad etmək fenomeni şübhəsiz ki, elmdə vacib etik normadır və ümumi elmi tənzimçi («requlyator», elmin fəlsəfi dilində) olmaqla elmi kommunikasiyanın vacib vasitələrindən biri hesab olunur. Təxminən XIX əsrin ortalarında, elmi jurnal sosial institut və alimlər arasında münasibətin ayrılmaz vasitəsi kimi baxılmağa başlayanda istinad etmək elmdə standart etik normaya çevrilir. Elmdə istinad etmənin etik funksiyasından başqa, qeyd etmək lazımdır ki, nəşrlərdəki istinadlara da elmi kommunikasiya vasitəsi kimi baxmaq olar. Elmi işlərdəki istinadları müşahidə etmək bu və ya digər ideyanın qonşu sahələrdə də mövcudluğunu, inkişafını izləməyə imkan verir. D.Prays qeyd etmişdir ki, istinad etmək bütün işləri vahid kompleksdə əlaqələndirən şəbəkə rolunu oynayır. Hər bir məqalə digər məqalələrin əsasında yaranır və öz növbəsində növbəti məqalə üçün başlanğıc, əsas məqamlardan birinə çevrilir. Əksər elmi jurnallarda təxminən 1850-ci ildə sələflərin işlərinə açıq istinad etmək, müraciət etmək ənənəsinin meydana gəlməsini görmək olar. Nəşrlərdə göstərilən biblioqrafik istinadların siyahısı işin xüsusi, orijinal, fərqli kontekstini yaradır, baxılan problemlərin, nəşrlərdə qoyulmuş ideyaların başa düşülməsində açar rolunu oynamaq üçün ilkin təqdimat verir. Qeyd etmək lazımdır ki, istinad etmə kimi bibliometrik göstərici elmi tədqiqatlarda tez-tez istifadə edilən standart göstəricidir [Hacıyeva A.Z. 2015 ]. Tədqiqat fəaliyyətində istinad etməkdən istifadənin üç aspektini, tərəfini ayırmaq olar: 1. Sənədlərin axtarışı (təcrübi aspekt); 2. Elmin ayrı-ayrı tədqiqat obyektlərinin bibliometrik qiymətləndirilməsi (alimlərin, nəşrlərin, jurnalların, institutların,

ölkələrin və s.); 3. İstinad etmənin bilik sahəsinin və ya bütövlükdə elmin strukturunun meydana gəlməsində istifadə olunması.

Bu baxımdan, Azərbaycan elmini tanıtmaq və onun elm istinad indeksinin reytinqini yüksəltmək üçün, beynəlxalq istinad indeksini əsas tutaraq, Azərbaycan Elmin İstinad İndeksinin yaradılması vacib önəmli məsələdir.

## Nəticə

Elmdə öz brendini yaratmaq tədqiqatçıdan yüksək professionallıqla yanaşı texniki bilik, və praktiki bacarıq tələb edir. Müəllif nümunə gətirdiyi fikrə istinad etməklə diqqəti cəlb edir, təsdiq etdiyi fikri sübut edir, kimi isə rəsmi olaraq mühakimə etmək imkanından yararlanır və s. Tədqiqat işində təyin edilmiş məqsədlər və elmi nəticələr çox önəmli yer tutur. Hər hansı bir mövzunu işləyərkən metodologiyanın düzgün müəyyən edilməsi, tədqiqat metodlarının seçilməsi, istifadə edilmiş ədəbiyyat siyahısından, yəni elmi istinad portalından, professional istifadə əsərin elmi yeniliyi və praktiki əhəmiyyətini artırır. Tədqiqat işində araşdırılması nəzərdə tutulan sualları düzgün müəyyən etmək, açar sözləri mövzuya uyğun olaraq tam əhatə etmək, tədqiqatın nəticələrini əsaslandıraraq yekunlaşdırmaq eləcə də istifadə edilən mənbələri dəqiq göstərmək tədqiqatçıdan yüksək peşəkarlıq tələb edir. Bununla yanaşı, tamamlanan tədqiqat işini beynəlxalq xülasələndirmə və indeksləşmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə çap üçün təqdim etmək çox əsaslı rol oynayır. «Web of Science», «Scopus» kimi elmi portallardan səmərəli istifadə və beynəlxalq elmi-tədqiqat brendləri ilə əməkdaşlıq, onların müasir elmi yanaşma tərzini öyrənmək tədqiqatçıdan tələb olunur. Bu baxımdan, elmi istinad indekslərinə və qabaqcıl elektron məlumat bazalarına müraciət etmək elmi informasiyanın yayılma prosesini sürətləndirir, alimlər üçün beynəlxalq şəbəkə, tədqiqatlarda yanaşma tərzini müasir tələblərə uyğunlaşdırır. Bu isə, ümumilikdə, qlobal bir elm modelini yaradır və bu modeli texnologiya vasitəsi ilə dünyanın hər bir nöqtəsində əlçatan edir.

Beynəlxalq istinad indeks sisteminin inkişafı, onun optimallaşdırılması milli istinad indeksinin yaradılmasına təkan verir. İstinad indekslərindən professional istifadə, alimlər arasında sonrakı müzakirələrə və sıx əməkdaşlığa elmi zəmin hazırlayır. Başqa müəlliflərin elmi baxışlarını müqayisə və təhlil etmək tədqiqat axtarışları zamanı çox vacibdir. Bu, tədqiqatçıya öz mövqeyini formalaşdırmaq və elmi cəhətdən əsaslandırmaq imkanını verir və ona bu brendin tərkib hissəsi olmaq şəraiti yaradır. Buna görə də, milli və ya beynəlxalq tədqiqatçılar bu müəllifi artıq bir brend olaraq qəbul edir və öz elmi əsərlərində ona istinad edərək onun elm istinad indeksinin göstəricilərini artırır. Bu baxımdan, Azərbaycan elmini tanıtmaq və onun elm istinad indeksinin reytinqini yüksəltmək üçün, beynəlxalq istinad indeksini əsas tutaraq, Azərbaycan Elmin İstinad İndeksinin yaradılması vacib və önəmli məsələ kimi tövsiyə edilir.

## İstifadə edilmiş ədəbiyyat

1. Hacıyeva A.Z. (2015) Əsas bibliometrik göstərici olan istinadlar elmi kommunikasiya vasitəsi kimi // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar institutunun Elmi əsərləri №2, s. 173-183.
2. Mehdiyev A. (2011) Elmşünaslıq və elmlərin təsnifatı. // Fəlsəfə və sosial-siyasi elmlər № 1, s.222.
3. Mərdanov M., Həsənova A. (2018) Nüfuzlu elmi jurnallara məqalə hazırlamağın yolları. // Azərbaycan məktəbi, № 4, s. 95-105.
4. Mirzəcanzadə A.X., Şıxəliyev F.Ə. (1985) İxtisasa giriş. Dərslik. I nəşr, Bakı: Maarif, 157 s.
5. Xəlilov S. (2010) Elmşünaslığa giriş. Bakı, Çaşıoğlu, 446 s.
6. Ардашкин И.Б., Сидоренко Т.В. (2016) Публикационная активность и её роль в оценке профессиональной деятельности научно-педагогических работников вузов (Российский опыт). Образование и наука. (1):145-158. https://doi.org/ 10.17853/1994-5639, 2016-1-145-158.
7. Бредихин С.В., Кузнецов А.Ю., Щербакова Н.Г. (2013) Анализ цитирования в библиометрии. Новосибирск: ИВМ и МГСО РАН, НЭИКОН, 344 с.
8. Мотрошилова Н.В. (2013) Реальные факторы научно-исследовательского труда и измерения цитирования / Управление большими системами. Специальный выпуск 44. Наукометрия и экспертиза в управлении наукой, с.453-475.
9. Парамонов С. (2014) Бренд учёного: Как сделать так, чтобы нас цитировали. Специалист по обучению и поддержке подписчиков Thomson Reuters. с. 67.
10. Рыкова И.Н. (2013) Публикационная активность научных и образовательных организаций в условиях инновационной экономики // Академия в лицах. Сайт Российской Академии естественных наук. Москва.
11. Abramo G., D'Angelo C. (2011) Evaluating research: from informed peer review to bibliometrics. Scientometrics. Vol. 87(3). p. 499–514.
12. Bickett B. (2019) Quran and Hadith. Guides at Georgetown University.
13. Bornmann L. (2013) The problem of citation impact assessments for recent publication years in institutional evaluations. Journal of Informetrics. Vol. 7 (3). p.722–729. Available at: http://dx.doi.org/10.1016/j.joi.2013.05.002.
14. Bryson D. (2012) Using research papers: citations, referencing and plagiarism. Journal of Visual Communication in Medicine, 35(2), p. 82–84.
15. Dahler-Larsen P. (2007) Constitutive effects of performance indicator systems. Dilemmas of engagement: Evaluation and the new public management. Emerald Group Publishing Limited; p. 17–35.
16. Hirsch J.E. (2005) An index to quantify an individual's scientific research output. Proc Natl Acad Sci USA. p. 102.
17. Müller R, de Rijcke S. Exploring the epistemic impacts of academic performance indicators in the life sciences. Research Evaluation. 2017; 26(3), p. 157–68.
18. Penders B. (2018) Ten simple rules for responsible referencing. PLoS Comput Biol., 2018, 14(4): e1006036. https://doi.org/10.1371/journal.pcbi.1006036.

19. Shulayeva O. (2017) Recognazing cited facts and principles in legal jugments – Springer.
20. Staugaitis L. (2019) A Contemporary Take on «Byrne's Eucllid» Brings Geometry to Life as a Coloful Poster. https://www.thisiscolossal.com/2019/02/byrnes-euclid/).